**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**PƏRVİZ AĞALAR OĞLU VƏLİYEV**

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASININ MALİYYƏ - İNVESTİSİYA MƏNBƏLƏRİ

**İxtisas: 5307.01- iqtisadi nəzəriyyə**

İqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiya işinin

**A V T O R E F E R A T I**

**Bakı – 2014**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir

**Elmi rəhbər**: İqtisad elmləri doktoru prof. **İ.H.Alıyev**

**Rəsmi opponentlər:** İqtisad elmləri doktoru **H.B.Rüstəmbəyov**

İqtisad üzrə fəlsəfə doktoru dos. **İ.M.Rzayev**

**Aparıcı təşkilat:** AzMİU-nun "İqtisadi nəzəriyyə" kafedrası

Müdafiə "_28__" 02___ 2014-cü il saat ___ -da AMEA İqtisadiyyat Institutunda fəaliyyət göstərən FD.01.181. Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: Az-1143, Bakı şəhəri, H.Cavid prospekti 31, II mərtəbə, AMEA-nın İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" _________ 2014-cü ildə göndərilmişdir

**FD.01.181. Dissertasiya Şurasının**
**elmi katibi, iqtisad üzrə**
**fəlsəfə doktoru, dosent** **G.S.Hacıyeva**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı:** Artıq bir həqiqətdir ki, dünya iqtisadiyyatında bir tərəfdən qloballaşma, digər tərəfdən isə sürətli qütbləşmə prosesi baş verdiyi bir dövrdə qarşıya çıxan problemlərin həlli ölkələrin iqtisadi inkişaf və iqtisadi təhlükəsizliyin səviyyəsindən asılıdır. İqtisadi təhlukəsizliyin təmin olunması ölkədə iqtisadiyyatın səmərəli strukturunun formalaşdırılması, resursların səmərəli şəkildə istifadə olunması və mövcüd sosial-iqtisadi problemlərin həlli ilə birbaşa əlaqədardır. Bu baxımdan da, müasir dövrdə iqtisadi təhlükəsizliyin mahiyyət və xüsusiyyətlərinin öyrənilməsi, eləcə də iqtisadi təhlükəsizliyin təmin olunması yollarının araşdırılması aktual bir problem kimi diqqəti cəlb edir.

Ölkə başçısı, möhtərəm İ.H.Əliyevin də qeyd etdiyi kimi "...iqtisadi təhlükəsizlik dedikdə, xaricdən heç bir müdaxilə və təzyiq olmadan xalqın öz iqtisadi inkişafının forma və yollarını müstəqil surətdə müəyyən etmək iqtidarı başa düşülür. Başqa sözlə, iqtisadi təhlükəsizlik ölkənin müstəqil bir dövlət kimi varlığının əsasını təşkil edir. Yəni, güclü iqtisadiyyat ən önəmli şərtdir və Azərbaycanda bütün məsələləri həll etmək üçün ilk növbədə iqtisadiyyat güclü olmalıdır". Bu isə, öz növbəsində maliyyə-investisiya vəsaitlərindən səmərəli və düşünülmüş şəkildə istifadəni tələb edir.

Aydındır ki, müasir dövrün səciyyəvi xüsusiyyətlərindən biri də qlobal məkanda kapital və maliyyənin hərəkətinin sürətlənməsidir ki, bu da iqtisadi təhlükəsizlik baxımından müəyyən xarici təhdidlər formalaşdırır. Belə ki, ayrı-ayrı milli təsərrüfatların həyatına dərindən nüfuz edən xarici kapital, təbii ki, ilk növbədə öz maraqlarından çıxış edir. Eyni zamanda, ölkədə fəaliyyət göstərən təsərrüfat subyektləri də öz maraqlarını müdafiə edirlər, iqtisadi təhlükəsizlik isə həm də milli və dövlətçilik maraqlarının təmin edilməsini tələb edir. Belə bir şəraitdə, bəzən xarici kapitalın və sahibkarın maraqları milli və dövlətçilik maraqları ilə üst-üstə düşmür, uzlaşmır. Ona görə də, mövcud maliyyə-investisiya mənbələrindən səmərəli istifadəni təmin etmək, milli iqtisadiyyatın zəruri istiqamətlərinin investisiya cəlbediciliyini yüksəltmək, cəlb edilmiş vəsaitlərin maksimum səmərəliliklə bölüşdürülməsini və yerləşdiril-

məsini təmin etmək kimi məsələlər olduqca mühüm aktuallıq kəsb edir.

Nəzərə alsaq ki, etibarlı təhlükəsizliyin təmin edilməsi, öz növbəsində həm də lazımi vəsait qoyuluşu tələb edir, başqa sözlə hər bir ölkədə iqtisadi təhlükəsizliyin etibarlı təminatı kifayətedici həcmdə maliyyə vəsaitləri tələb edir. Ona görə də, iqtisadi təhlükəsizliyin təmin edilməsinin maliyyə-investisiya mənbələrinin araşdırılması, iqtisadi təhlükəsizlik baxımından lazımi maliyyə mənbələrinin aşkara çıxarılması, bu mənbələrdən səmərəli istifadə olunması və s. olduqca mühüm əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, müasir bazar münasibətləri şəraitində aparıcı mövqe özəl sektora məxsusdur və dövlətin özəl sektorun fəaliyyətinə bu və ya digər tənzimləyici təsiri onun büdcə və maliyyə-kredit siyasətindən çox asılıdır, onda bu sahələrin iqtisadi təhlükəsizliyə təsirinin tədqiq olunmasının da əhəmiyyəti aydın olar. Bütün bunlar seçilmiş tədqiqat mövzusunun aktual problemləri əhatə etdiyini və günün reallığından irəli gəldiyini sübut edir.

**Problemin öyrənilmə səviyyəsi:** Ölkənin iqtisadi təhlükəsizliyi və onun təmin olunması məqsədilə maliyyə-investisiya ehtiyatlarından səmərəli istifadə məsələləri xarici alimlərdən V.Boqomolov, L.Abalkin, V.Sençaqov, İ.Qlazyev, A.İllarianov, V.Balabanov, İ.Boqdanov, E.Barisenko, V.Şetenin, V.Zaqaşvili və başqalarının əsərlərində öyrənilmişdir. Həmçinin problemin geniş əhatəli olmasını nəzərə alaraq qeyd edə bilərik ki, ökəmizin tanınmış alimləri problemin ayrı-ayrı istiqamətlərini dərindən tədqiq etmiş və onların elmi əsaslarını işləmişdir. Azərbaycanda A.A.Nadirov, Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, Ə.X.Nuriyev, Ş.M.Muradov, İ.H.Alıyev, H.B.Rüstəmbəyov G.Z.Yüzbaşıyeva, H.B.Allahverdiyev, M.A.Əhmədov və digər alimlər öz tədqiqatlarında iqtisadi təhlükəsizliklə bağlı müəyyən araşdırmalar aparmış və problemin ayrı-ayrı istiqamətlərinə dair təklif və tövsiyələr vermişlər.

Bütün bunlarla yanaşı, ölkəmizdə iqtisadi təhlükəsizliyin təmin edilməsinin maliyyə-investisiya mənbələrinin müəyyən edilməsinin öyrənilməsi, maliyyə ehtiyatlarından daha səmərəli istifadə olunması istiqamətində tam araşdırmalar aparılmamışdır. Bütün

bunlar isə seçilmiş mövzunun aktuallığını bir daha şərtləndirir və tədqiqat zamanı aktual problemlərin araşdırıldığını göstərir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədi iqtisadi təhlükəsizliyin təmin edilməsinin nəzəri-metodoloji əsaslarının öyrənilməsi əsasında maliyyə-investisiya mənbələrindən daha səmərəli istifadə olunması istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyyələrin işlənib hazırlanmasından ibarətdir.

Bu məqsədlə tədqiqat zamanı aşağıdakı vəzifələr qarşıya qoyulmuş və ardıcıllıqla yerinə yetirilmişdir:

- iqtisadi təhlükəsizliyin elmi-nəzəri əsaslarının öyrənilməsi;
- qloballaşma şəraitində iqtisadi təhlükəsizliyin fərqləndirici xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- Azərbaycan Respublikasının müasir vəziyyətinin iqtisadi təhlükəsizlik mövqeyindən araşdırılması;
- maliyyə-investisiya mənbələrinin ölkənin iqtisadi təhlükəsizliyinə təsirinin müəyyənləşdirilməsi;
- iqtisadi təhlükəsizliyin təmin edilməsinin mühüm maliyyə-investisiya mənbələrindən biri kimi qiymətli kağızlar bazarının tədqiq olunması;
- Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyin təmin edilməsi yollarının müəyyənləşdirilməsi;
- iqtisadi təhlükəsizliyin təmin olunmasında maliyyə-investisiya mənbələrindən səmərəli istifadə baxımından büdcə və pul-kredit siyasətinin təkmilləşdirilməsi istiqamətlərinin tədqiqi;
- iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından maliyyə-investisiya mənbələrindən səmərəli istifadə olunması istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın obyekti:** Tədqiqat işinin obyekti iqtisadi təhlükəsizlik sistemidir.

**Tədqiqatın predmeti**: Tədqiqatın predmeti isə iqtisadi təhlükəsizliyin maliyyə-investisiya mənbələrindən istifadənin nəzəri, metodoloji və praktiki məsələləridir.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** dünya və Azərbaycan alimlərinin mü-vafiq tədqiqatlarının nəticələri, iqtisadi nəzəriyyə,

dialektikanın prinsipləri, anlayışları, kateqoriyaları, qanunları və onların iqtisadi tədqiqatlarda tətbiqi xüsusiyyətləri təşkil edir. Tədqiqat zamanı iqtisadi-statistik təhlil, məntiqi yanaşma, induksiya, deduksiya və mühakimə üsullarından, eləcə də sistem yanaşma prinsipindən istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** maliyyə-investisiya mənbələrindən səmərəli istifadə etməklə iqtisadi təhlükəsizliyin təmin edilməsinə dair normativ-hüquqi sənədlər, Azərbaycan Dövlət Statistika Komitəsinin məcmuələri, statistik hesabatları, Maliyyə, Vergilər və s. nazirliklərin məlumatları, eləcə də müəllifin şəxsi müşahidələri təşkil edir.

**Tədqiqatın elmi yenilikləri** aşağıdakılardan ibarətdir:

- iqtisadi təhlükəsizliyin mahiyyəti tədqiq edilərək onun məzmun elementləri aydınlaşdırılmışdır;
- qloballaşma prosesinin iqtisadi təhlükəsizliyə təsir istiqamətləri göstərilmiş və onun fərqləndirici xüsusiyyətləri müəyyənləşdirilmişdir;
- maliyyə-investisiya potensialının iqtisadi təhlükəsizliyə təsir imkanları müəyyən edilmişdir;
- mühüm maliyyə-investisiya mənbələrindən biri kimi qiymətli kağızlar bazarının inkişafının zəruriliyi əsaslandırılmış və bu istiqamətdə müvafiq təklif və mülahizələr irəli sürülmüşdür;
- iqtisadi təhlükəsizliyin təmin edilməsində büdcə və pul-kredit siyasətinin rolu izah edilərək, təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir;
- investisiya fəallığının iqtisadi təhlükəsizliyə təsir imkanları müəyyənləşdirilmişdir;
- Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyin təmin edilməsi istiqamətində təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat zamanı əldə olunmuş nəticələr, eləcə də irəli sürülmüş təklif və tövsiyyələr bazar münasibətlərinin inkişaf etdiyi müasir dövrdə iqtisadi təhlükəsizliyin təmin edilməsində, bu sahədə maliyyə-investisiya potensialından səmərəli istifadə olunmasında, yeni maliyyə-investisiya mənbələrinin aşkara çıxarılmasında istifadə edilə bilər.

Eyni zamanda, tədqiqat zamanı əldə edilmiş nəticə və təkliflər ali məktəblərdə tədris proqramlarının işlənib hazırlanmasında, eləcə də müasir qloballaşma dövründə iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından maliyyə-investisiya mənbələrinin müəyyən edilməsi, onlardan səmərəli istifadə edilməsi istiqamətində dövlətin və özəl sektorun vəzifələrinin müəyyən edilməsinə dair yeni müvafiq normativ-hüquqi sənədlərin və təlimatların işlənib hazırlanmasında istifadə oluna bilər.

**İşin aprobasiyası və nəticələrin tətbiqi.** Tədqiqat işinin əsas müddəaları, işdə irəli sürülmüş təklif və tövsiyələr müxtəlif dövrlərdə keçirilən respublika və beynəlxalq səviyyəli elmi konfranslarda məruzə edilmiş, bəyənilmiş və çap olunmuşdur. Tədqiqat işi ilə əlaqədar, biri xaricdə olmaqla, müxtəlif elmi nəşrlərdə 4,5 çap vərəqi həcmində 10 elmi məqalə çap edilmişdir.

Tədqiqat zamanı iqtisadi təhlükəsizliyin təmin edilməsi, onun başlıca istiqamətlərinin müəyyən olunması, bu istiqamətdə maliyyə-investisiya mənbələrindən səmərəli istifadə olunması, bu məqsədlə pul-kredit və büdcə siyasətinin təkmilləşdirilməsində dövlətin və özəl sektorun vəzifələrinin aydınlaşdırılması istiqamətində irəli sürülmüş təklif və tövsiyələr, eləcə də əldə edilmiş nəticələr ayrı-ayrı Universitetlərin uyğun kafedralarında müvafiq fənlərin tədrisi zamanı istifadə edilə bilər.

**Tədqiqatın quruluşu və həcmi.**Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 160 səhifədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflər, eləcə də istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Girişdə mövzunun aktuallığı, tədqiqatın nəzəri-metodoloji əsasları, onun məqsəd və vəzifələri verilmiş, predmeti və obyekti, işin elmi yeniliyi , nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası şərh olunmuşdur.

Dissertasiya işinin "**İqtisadi təhlükəsizliyin təmin olunmasının nəzəri-metodoloji əsasları**"adlanan birinci fəslində merkantilizm, klassik, monetarizm, keynisçi və s.iqtisadi məktəblərin mövqelərini, eləcə də ayrı-ayrı klassik iqtisadçıların baxışlarını

iqtisadi təhlükəsizlik baxımından təhlil edilmiş, müvafiq ümumiləşdirmələr aparılmış, müasir dövrdə iqtisadi təhlükəsizliyin mahiyyəti və məzmun elementləri, qloballaşma şəraitində təhlükəsizliyin səciyyəvi xüsusiyyətləri tədqiq edilmişdir. Qeyd edilir ki, iqtisad elmi, o cümlədən iqtisadi proses və problemlər müxtəlif inkişaf mərhələri keçmişdir. Bu isə, ayrı-ayrı məsələlərə müxtəlif yanaşmaları əks etdirir. O cümlədən iqtisadi təhlükəsizlik probleminə də müxtəlif iqtisadi məktəblərin yanaşması fərqli olmuşdur. Baxmayaraq ki, məktəblərin bir çoxunun fəaliyyəti dövründə iqtisadi təhlükəsizlik anlayışı mövcud deyildir, lakin məktəblərin baxışlarında problemə dair müəyyən fikirlərə rast gəlmək mümkündür. Əslində, bu fikirlər məktəblərin səciyyəvi xüsusiyyətlərindən, yanaşmalarından irəli gəlir. Məhz bu səbəbdən də, iqtisadi yanaşmalar və ümumilikdə iqtisadi məktəblər də iqtisadi təhlükəsizliyə fərqli münasibət bəsləyirlər. Bu da təbiidir, ona görə ki, XVI-XIX əsrlərdə iqtisadi təhlükəsizlik daxili istehsalı inkişaf etdirməklə, ölkənin regionlarının və iqtisadiyyatın sahələrinin proporsional inkişafını təmin etməklə mümkün olurdusa, XX əsrdən etibarən bu sırada xarici amillər daha üstün mövqe qazandılar. Məhz bu səbəbdən də, əvvəlki dövlərdə iqtisadi təhlükəsizliyə yanaşmalarla, sonrakı dövrdəki yanaşmalar, təbii olaraq, biri-birindən ciddi surətdə fərqlənirdilər. Bu məqsədlə də, tədqiqat zamanı, merkantilizm, fiziokratlar və klassik məktəb, monetarizm, keynsçi məktəb, müasir iqtisadi məktəblərdən isə neoklassik məktəb, neokeyns məktəbi, rasional gözləmə məktəbinin baxışları nəzərdən keçirilmiş, iqtisadi təhlükəsizliklə bağlı fikirlər müqa-yisəli təhlil olunmuşdur.

Bütün nəzəri baxışların nəticəsi olaraq, müasir dövrdə hər bir dövlətin qarşısında duran mühüm vəzifələrdən birinin də ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi olduğu aydındır. Belə ki, hazırda dünyada qloballaşma meylinin güclənməsi, inteqrasya proseslərinin sürətlənməsi, ölkələr arasında qarşılıqlı əlaqə və asılılığın güclənməsi, həmçinin bu proseslərin ölkə iqtisadiyyatına mənfi təsirlərinin artması ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasını ön plana çıxartmışdır. İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi olaraq cəmiyyətdə sosial sabitliyin, tarazlı inkişafın təmin olunması, ölkənin müdafiə qabiliyyətinin

yüksəldilməsi və s. üçün şərait yaradır. Ümumilikdə isə, müasir dövrdə də problemə dair yanaşmalar, qismən də olsa, fərqlənir. Məsələn, rus alimi V.Sençaqov qeyd edir ki, iqtisadi təhlükəsizliyi izah etmək üçün, ilk növbədə onun əsas komponenti olan iqtisadi maraqları müəyyənləşdirmək lazımdır. Digər bir qrup iqtisadçılar isə qeyd edirlər ki, iqtisadi təhlükəsizlik özündə dövlətin milli iqtisadi və sosial maraqlarının müdafiəsini əks etdirir. Burada həm cəmiyyətin maraqlarının dövlət səviyyəsində təmin olunması, həm də onların reallaşmasına mənfi təsir göstərən daxili və xarici amillərdən qorunması əsas kimi götürülür. Rus alimi L.Abalkinin fikrincə iqtisadi təhlükəsizlik sərbəstlik, yəni dövlətin bütün milli ehtiyyatlar və istehsala tam nəzarəti və sərbəst iqtisadi qərar qəbul edə bilməsi, milli iqtisadiyyatın dayanıqlığı və sabitliyinin təmin olunması, iqtisadiyyatın özünü inkişaf etdirmə qabiliyyətinin olması kimi şərtlərin ödənilməsini tələb edir. Eyni zamanda, digər bir yanaşmada qeyd olunur ki, iqtisadi təhlükəsizlik iqtisadiyyatın elə bir inkişaf səviyyəsidir ki, bu, iqtisadi maraqların həm milli, həm də beynəlxalq səviyyədə səmərəli şəkildə qorunmasına və idarə edilməsinə təminat yaradır. Bu isə o deməkdir ki, iqtisadi təhlükəsizlik problemi dövlətçiliyin meydana gəlməsi və inkişafı, həmçinin millətin öz iqtisadi maraqlarını dərk etməsi ilə bərabər meydana gəlmişdir.

İqtisadçı alim V.Balabanov qeyd edir ki, iqtisadi təhlükəsizliyi təmin etmədən dövlətin qarşısında duran həm milli, həm də beynəlxalq səviyyəli vəzifələri həll etmək olmaz. Dövlətin qarşısında duran iqtisadi və sosial vəzifələrin milli iqtisadi maraqlar çərçivəsində həll edilməsi, milli dövlət maraqlarının beynəlxalq səviyyədə müdafiəsinə şərait yaradır. Bunları nəzərə alaraq belə bir qənatə gəlmək olar ki, iqtisadi təhlükəsizlik ölkənin iqtisadi maraqlarına təsir göstərən daxili və xarici mənfi amillərin qarşısının alınması, eləcə də perspektiv dövrdə bu maraqların reallaşması üçün şəraitin yaradılmasını özündə əks etdirir. Beləliklə aydın olur ki, tədqiqatçılar iqtisadi təhlükəsizliyi izah edərkən əsas diqqəti ölkənin iqtisadi maraqlarına və bu maraqların təmin olunmasına yönəltmişlər. Daha dəqiq desək, iqtisadi təhlükəsizlik milli iqtisa-

diyyatın müstəqilliyini, onun stabilliyini və dayanıqlılığını, daimi inkişaf meylini təmin edən şərait və amillərin məcmusudur.

İqtisadçı alimlərin bir qrupu isə qeyd edir ki, milli iqtisadi təhlükəsizlik dedikdə, dövlət, bazar və vətəndaşların birgə təhlükəsizliyinin təmin edilməsi nəzərdə tutulur. Əslində isə, cəmiyyətin tələbatlarının ödənilməsini nəzərə almaqla, vətəndaşların və bazarın təhlükəsizliyinin təmin olunması, bütövlükdə iqtisadi maraqların reallaşmasını özündə əks etdirir. Deməli, ölkənin iqtisadi maraqları özündə insanların tələbatlarının ödənilməsi və bu məqsədlə də resursların səmərəli bölgüsü və istifadəsi ilə bağlı bütün cəhətləri əks etdirməlidir. Daha qısa şəkildə desək, iqtisadi maraqlar həm ayrılıqda hər bir insanın, həm də cəmiyyətin iqtisadi maraqlarının təmin olunması əsasında ümumdövlət maraqlarının təmin olunmasını xarakterizə etməlidir.

Araşdırmalar göstərir ki, iqtisadi təhlükəsizliyin mahiyyətini aydınlaşdırarkən iqtisadi maraqlarla yanaşı bu maraqların reallaşmasına şərait yaradan digər bir cəhətə - iqtisadi inkişaf anlayışına nəzər salmaq vacibdir. Eyni zamanda, V.Sençaqov da qeyd edir ki, iqtisadi təhlükəsizliyin mahiyyətini daha aydın başa düşmək üçün onun inkişaf və dayanıqlıq anlayışları ilə əlaqələrini aydınlaşdırmaq lazımdır. İqtisadi inkişafın məqsədi əhalinin həyat səviyyəsinin keyfiyyətini yüksəltmək, insanların inkişafını və təhlükəsizliyini səmərəli şəkildə təmin etməkdir. İqtisadi inkişafın həm kəmiyyət, həm də keyfiyyət tərəfinə nəzər saldıqda üç amilə - insan kapitalına, təbii resurslara və istehsal yönümlü kapitala diqqət yetirilir.

Təbii ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi səviyyəsi, vasitələri və üsüllarının müəyyənləşdirilməsi üçün meyarlar seçilməlidir. Eyni zamanda, bu meyarlar özündə ölkə iqtisadiyyatında baş verən poseslәri, onların ölkənin iqtisadi maraqlarını təmin edə bilmək nöqteyi-nəzərindən qiymətləndirilməsini və ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasını əks etdirməlidir. Bir sıra tədqiqatçılar ölkənin resurs potensialı və onun inkişaf etdirilməsi, resursların-əmək və kapitalın səmərəli istifadəsi, daxili və xarici neqativ amillərin minimuma endirilməsi, ölkənin ərazi bütövlüyü və iqtisadi məkanın tamlığı, sosial sabitlik və sosial konfliktlərin aradan qaldırılmasını iqtisadi təhlükəsizliyin əsas meyarları kimi

təklif edir. Digər bir iqtisadi ədəbiyyatda isə iqtisadi təhlükəsizliyin əsas meyarları əhalinin əmlak bərabarsizliyinin qarşısının alınması, iqtisadiyyatın struktur yenidənqurulmasının təmin edilməsi, ölkənin regionları arasında qeyri-bərabər inkişafın balanslaşdırılması, təsərrüfatçılıq fəaliyyətində kriminallaşma hallarına səbəb olan amillərin müəyyənləşdirilməsi və aradan qaldırılması və s. kimi izah edilir. Məsələn, qonşu Rusya Federasyasının iqtisadi təhlükəsizlik strategiyasında qeyd olunur ki, iqtisadi təhlükəsizlik tələblərinə cavab verən kriteriyalar müəyyənləşdirilərkən iqtisadiyyatın geniş təkrar istehsal rejimində fəaliyyət göstərmək qabiliyyəti, yəni istənilən şəraitdə dövlətin mövcudluğu üçün həyati əhəmiyyət kəsb edən sahələrin inkişaf etdirilməsi və bu sahələrin xaricdən asılılığının aradan qaldırılması, qəbul olunmuş standartlara uyğun olaraq, əhalinin normal həyat səviyyəsinin təmin olunması və qorunub saxlanılması, maliyyə sisteminin dayanıqlılığı, büdcə kəsri, qiymətlərin normallaşdırılması, bank sisteminin, milli valyutanın dayanıqlılığı, investisiya cəlbediciliyinin artırılması, investisiya axını üçün müvafiq şəraitin yaradılması, daxili və xarici borcların, həmçinin tədiyyə balansı kəsirinin aşağı salınması və s. kimi məsələlərin nəzərə alınması vacibdir.

Bütün bunları nəzərə alaraq iqtisadi təhlükəsizlik meyarlarını ölkənin resurs potensialının, həmçinin elmi-texniki potensialın həcmi, keyfiyyəti, bu potensialdan səmərəli istifadə dərəcəsi və inkişaf etdirilmə imkanları, sosial sabitliyin təmin olunması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və sosial-iqtisadi inkişaf üçün əlverişli şəraitin yaradılması, iqtisadiyyatın real sektorunun, yəni sənaye və kənd təsərrüfatının inkişaf səviyyəsi və prioritet sahələrin inkişaf etdirilməsi, ölkənin xarici iqtisadi əlaqələrinin strukturunun təkmilləşdirilməsi və xarici ticarətin rasionallaşdırılması, maliyyə sabitliyinin təmin olunması, iqtisadi sistemin xarici təsirlərə uyğunlaşmaq və onlara əks təsir göstərmək imkanlarının inkişaf etdirilməsi kimi müəyyənləşdirmək olar.

Tədqiqatlardan aydın olur ki, müasir qloballaşma şəraitində də iqtisadi təhlükəsizlik bir sıra səcviyyəvi xüsusiyyətlərlə xarakterizə olunur. Belə ki, qloballaşma şəraitində iqtisadi təhlükəsizliyin başlıca fərqləndirici xüsusiyyəti onun xarici amillərdən daha çox

asılı olmasındadır. Bu da ondan irəli gəlir ki, sürətlə inteqrasiya edən dünyada, bəzən ayrı-ayrı milli iqtisadiyyatlar üçün maraq və məqsədlər fərqli olur ki, bu da müəyyən təhlükələr doğurur. Başqa sözlə desək, müasir dövrdə iqtisadi təhlükəsizliyin təmin edilməsi, ilk növbədə xarici amillərin zərərsizləşdirilməsini tələb edir.

Dissertasiya işinin "**İqtisadi təhlükəsizliyin təmin edilməsində müasir maliyyə-investisiya mənbələrindən istifadənin təhlili və qiymətləndirilməsi**" adlanan ikinci fəslində son illər Azərbaycan Respublikasında həyata keçirilən sosial-iqtisadi islahatlar, istehsal sferasında təmin edilmiş dinamika, ayrı-ayrı sahələr üzrə cəlb edilmiş investisiyalar, müxtəlif sahələrdə əsas istehsal fondları və s. məsələlərə dair statistik göstəricilər nəzərdən keçirilmiş, müqayisəli təhlil olunmuş və ümumiləşdirmələr aparılmışdır.

Müasir dövrdə Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar iqtisadiyyatın dinamik inkişafının təmin olunması və dinamik inkişaf tempinin əldə olunması ilə müşahidə olunur. Bazar iqtisadiyyatına keçid istiqamətində həyata keçirilən tədbirlər nəticəsində ölkədə dayanıqlı makroiqtisadi sabitlik təmin edilmiş və dinamik iqtisadi artıma nail olunmuşdur. Bütün bunları statistik məlumatlar da bir daha təsdiq edir.

Statistik məlumatlardan göründüyü kimi, yalnız 2000-2012-ci illər ərzində ÜDM 11,4 dəfə, pərakəndə əmtəə dövriyyəsi 8,3 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 12,2 dəfə, xarici ticarət dövriyyəsi 11,5 dəfə artmışdır. Eyni zamanda, bu illər ərzində dövlət büdcəsinin gəlir və xərclərində, müvafiq olaraq, 24,1 və 22,7 dəfə, əhalinin gəlirlərində və adambaşına düşən gəlirlərdə, uyğun olaraq, 8,5 və 7,4 dəfə, orta aylıq əmək haqqında 8,9 dəfə yüksəliş əldə edilmişdir. Bu müddətdə, xarici ticarətdə müsbət saldo qorunub saxlanmış və müsbət nəticələr daha da artmışdır. Belə ki, 2000-ci ildə idxal və ixrac arasındakı fərq +573,1 mln. manat olmuşdursa, 2006-cı ildə bu rəqəm +1105,5, 2012-ci ildə isə +14255,1 mln. manat təşkil etmişdir. Xüsusilə, dinamik iqtisadi inkişafda mühüm rolu olan investisiya qoyuluşlarında 2000-2012-ci illər ərzində 15,9 dəfə artıma nail olunmuşdur ki, bu da, 1,2 dəfə orta illik artım deməkdir.

Cədvəl

**Əsas sosial-iqtisadi göstəricilər**

| | 2000 | 2005 | 2008 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|
| Əhalinin sayı (ilin sonuna), min nəfər | 8081 | 8436.4 | 8730.3 | 8997,6 | 9111,1 | 9356,5 |
| Ümumi daxili məhsul | 4718.1 | 12522.5 | 38005.7 | 42465.0 | 50069.0 | 53995,0 |
| Sənaye məhsullarının ümumi həcmi | 3639.5 | 9290.5 | 29773.3 | 27978.2 | 34553.9 | 34565,0 |
| Əsas kapitala yönəldilən investisiyalar | 967.8 | 5769.9 | 9944.2 | 9905.7 | 12776.4 | 15407,3 |
| Kənd təsərrüfatı, meşəçilik, balıgçılıq və ovçuluq məhsullarının ümumi həcmi | 1072.6 | 1867,7 | 3541,3 | 3968,1 | 4685,0 | 5036,7 |
| Nəqliyyat sektorunda yük dövriyyəsi, mlyn.ton | 92.7 | 128.3 | 183,1 | 196.5 | 203.6 | 210.9 |
| Pərakəndə əmtəə dövriyyəsi | 2119.9 | 4548,2 | 10585.4 | 13261.7 | 15880.3 | 17559,1 |
| Əhaliyə göstərilən pullu xidmətlər | 477.2 | 960.7 | 3393 | 4724.5 | 5332.4 | 5828,1 |
| Xarici ticarət dövriyyəsi, mlyn. ABŞ dolları, o cümlədən | 2917.3 | 8558.4 | 54919.7 | 33161,7 | 36326.9 | 33560,9 |
| İxrac | 1745.2 | 4347.2 | 47756.2 | 26560,1 | 26570.9 | 23908,0 |
| İdxal | 1172.1 | 4211.2 | 7163.5 | 6600,6 | 9756.0 | 9652,9 |
| Dövlət büdcəsinin gəlirləri | 714.6 | 2055.2 | 10762.7 | 11403.0 | 15700.7 | 17281,5 |
| Dövlət büdcəsinin xərcləri | 764 | 2140.7 | 10774.2 | 11765.9 | 15397.5 | 17416,5 |
| Əhalinin gəlirləri | 4047.3 | 8063.6 | 20735.4 | 25607.0 | 30524,6 | 34723,9 |
| Adambaşına düşən gəlirlər, manat | 510.5 | 974.9 | 2343.2 | 2846.0 | 3371.7 | 3784,3 |
| Bir işçiyə hesablanmış nominal orta aylıq əmək haqqı, manat | 44.3 | 123.6 | 274,4 | 331,5 | 364,2 | 398,4 |
| İşsiz statusu verilmiş şəxslərin sayı, nəfər | 43739 | 56343 | 44481 | 38966 | 38330 | 36791 |

**Mənbə:** "Azərbaycanın statistik göstəriciləri - 2013", səh.35-39.

Araşdırmalar göstərir ki, respublikamızda iqtisadi təhlükəsizliyin muasir vəziyyətini təhlil edərkən real sektorun inkişaf göstəricilərinə xüsüsi diqqət yetirilməsi vacibdir. Çünki, artıq qeyd olunduğu kimi, ölkədə sağlam milli iqtisadiyyatın formalaşmasının, sosial-iqtisadi problemlərin həll edilməsinin və iqtisadi təhlükəsizliyin təmin olunmasının əsasında real sektorun inkişaf etdirilməsi, insanların yaşayış şəraitinin yaxşılaşdırılması, bütün sahələrdə, xüsusilə sənaye məhsulları üzrə istehsal həcmininin artırılması və s. durur. Bu da ondan irəli gəlir ki, sənaye istehsalının həcmi ölkənin sosial-iqtisadi inkişaf səviyyəsini, eləcə də məşğulluq və yaşayış şəraitini xarakterizə edən mühüm göstəricilərdən biridir.

Məlumdur ki, sənaye hər bir milli iqtisadiyyatın aparıcı istiqamətidir və sənayenin inkişafı istər ölkənin ümumi tərəqqisi, istərsə də təhlükəsizliyi, o cümlədən iqtisadi təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, ölkəmizdə də sənaye istehsalında əldə edilən dinamika, mövcud potensialı tam əks etdirməsə də, bu sahədə müəyyən irəliləyişlərin olduğunu göstərir. Belə ki, 2000-2012-ci illər ərzində sənaye istehsalı 9,5 dəfə, bu sahədə fəaliyyət göstərən müəssisələrin sayı 811 ədəd, orta aylıq əmək haqqı 4,9 dəfə artmış, sənayedə çalışanların sayı isə 5,5 min nəfər azalmışdır.

Bütün bunlarla yanaşı, sənaye məhsulunun həcmində əldə edilən artımın strukturuna nəzər saldıqda, müəyyən problemlərin olduğu aydın laşır. Belə ki, istər məhsul artımında, istər bu sahəyə investisiya qoyuluşlarında, istərsə də işçilərin, əsas fondların və s. sayında və həcmində ayrı-ayrı sahələr arasında qeyri-tarazlı münasibətlər mövcuddur. Daha doğrusu, bu sahədə neft sektorunun payı qeyri-neft sektorunu xeyli geridə qoyur. Bu isə o deməkdir ki, son illər respublikamızda aparılan məqsədyönlü tədbirlər nəticəsində sənaye istehsalında sürətli artım meylləri müşahidə olunmuşdur. Sənaye göstəriciləri üzrə hasilat və emal sənayesi göstəricilərinin təhlili göstərir ki, bu sahələrdə qeyri tarazlı şəkildə inkişaf etmişdir.

Belə ki, ölkədə 2000-ci ildən başlayaraq hasilat sənayesi sürətli inkişaf tempini əldə etmişdir. Bu göstəricinin ümumi sənayedə payı 2000-ci ildə 44,6%, 2005-ci ildə 61,1%, 2011-ci ildə isə 89,8% olmuşdur. Burada mənfi hesab olunan hal ondan ibarətdir ki, hasilat sənayesi yalnız xam neft və qaz hasilatı hesabına ümumi artımı əldə etmiş və digər sahələr isə artım nəzərə çarpmaz dərəcədə aşağı olmuşdur. Hasilat sənayesində xam neft və qaz hasilatı illər üzrə uyğun olaraq 31,2%, 32,3%, 46,8%, 53,4%, və 58,5% olduğu halda metal filizlərinin hasilatı və karxanaların işlənməsi 0,01-0,1% arasında tərəddüd etmişdir.

Araşdırmalardan aydın olur ki, yalnız 2006-2012-ci illər ərzində sənayenin ÜDM-də payı 50%-i ötmüşdür. Xüsusilə, ölkənin ümumi, iqtisadi və ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən kənd təsərrüfatı sahəsinin ÜDM-də payı çox aşağıdır və

bu mövcud potensialı əks etdirmir. Nəzərə alsaq ki, Azərbaycanın əksər regionları kənd təsərrüfatının istehsalı üçün zəngin potensiala malikdir və əhalinin 50%-ə yaxını bu regionlarda yaşayır, onda bu sahəni inkişaf etdirmək üçün geniş imkanlar olduğu məlum olar.

Ayrı-ayrı sahələr üzrə əsas fondların həcminə nəzər saldıqda aydın olur ki, bu göstərici üzrə də sənaye ilə digər sahələr arasında kəskin fərqlər mövcuddur. Belə ki, ümumi həcmin 59,5%-i sənayenin payına düşdüyü halda, kənd təsərrüfatı, tikinti, nəqliyyat və digər sahələrin payına əsas fondların cəmi 41,5%-i düşür. Bu isə, təbii ki, qeyri-tarazlı nəticəyə səbəb olur. Ona görə də digər sahələrdə də istehsal prosesinin və məhsuldarlığın əsasını təşkil edən əsas fondla silahlanma göstəricinin yüksəldilməsi məqsədəuyğun olardı.

Məlumdur ki, sosial-iqtisadi siyasətin həyata keçirilməsinin başlıca təminatçısı ölkənin maliyyə sisteminin əsas həlqəsi olan dövlət büdcəsidir. Müşahidə və araşdırmalar göstərir ki, ölkəmizdə iqtisadi təhlükəsizlik baxımından dövlət büdcəsi ilə bağlı ciddi bir problem yoxdur. Belə ki, iqtisadi təhlükəsizlik baxımından mənfi hal kimi qiymətləndirilə bilən dövlət büdcəsinin kəsri ÜDM-ə nisbətdə qəbul olunmuş səviyyədən çox aşağı olmuşdur. Bu göstərici 1995-ci ildə 5,2%, 2001-ci ildə 0,4% olmuş, sonralar isə kəsr aradan qaldırılmışdır. Lakin qeyd etməliyik ki, bu gün dövlət büdcəsi bir sıra mühüm sahələri lazımi səviyyədə maliyyələşdirə bilmir. Belə ki, elmin maliyyələşdirilməsi üzrə xərclər inkişaf etmiş ölkələrdə 3-5% arasında olduğu halda, bu göstərici ölkəmizdə 0,2%-dən az olmuşdur. Bu da, təbii ki, ölkədə mövcüd elmi potensialın saxlanması və inkişaf etdirilməsi, geniş miqyaslı elmi araşdırmaların aparılması, əldə edilən nəticələrin istehsalata tətbiqi baxımından yetərli deyildir. Təbii ki, lazımi elmi yeniliklərə nail olmadan texniki və texnoloji sahədə arzu edilən təkmilləşdirmələrə nail olmaq qeyri-mümkündür. Ona görə də, büdcədən elmin maliyyələşdirilməsinə ayrılan vəsaitləri minimum 2% həddinə qədər artırmaq məqsədəuyğun olardı ki, bu da həm yeni texnika və texnologiyanın tətbiqini sürətləndirər, həm də elmi potensialın qorunması və artırılması üçün stimul olar. Bütün bunlar isə ölkənin

ümumi iqtisadi təhlükəsizliyi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.

Aydındır ki, iqtisadi təhlükəsizliyin əsasını təşkil edən iqtisadi tərəqqi maliyyə təminatından çox asılıdır. Bu isə, öz növbəsində maliyyə potensialından asılıdır. Bu mənada, maliyyə potensialının yüksəldilməsi ilə maliyyə təminatının yaxşılaşdırılması məqsədəuyğun olardı. Tədqiqat zamanı, maliyyə təminatı və potensialına təsir edən, maliyə cəlbediciliyini yüksəldən investisiya mühiti və riski, investisiya iqlimi və s. məsələlər araşdırlmışdır. Eyni zamanda, bu fəsildə müasir maliyyə mənbələrindən biri kimi qiymətli kağızlar bazarının inkişaf istiqamətləri də geniş tədqiq edilmişdir. İşdə qiymətli kağızlar bazarı, maliyyə bazarının, sərbəst vəsaitləri cəmləşdirib zəruri istiqamətlərə yönəldən bir tərkib hissəsi kimi geniş tədqiq edilmiş, müvafiq təklif və tövsiyələr işlənib hazırlanmışdır.

İşin **“Maliyyə-investisiya mənbələrinin iqtisadi təhlükəsizliyə təsirinin artırılması yolları”** adlanan üçüncü fəslində Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyin təmin olunması, iqtisadi təhlükəsizlik baxımından büdcə və pul-kredit siyasətinin təkmilləşdirilməsi, investisiya fəallığının yüksəldilməsi kimi istiqamətlər tədqiq olunmuşdur.

Qeyd olunur ki, müasir dövrdə yerli xammal resurslarının səmərəli şəkildə dövriyyəyə cəlb olunması, sənaye və kənd təsərrüfatının inkişaf etdirilməsi respublikamızın iqtisadi təhlükəsizliyinin təmin olunmasının başlıca şərti olduğunu nəzərə alaraq, müstəqil dövlət kimi Azərbaycan, ilk növbədə çox güclü və hər cəhətdən ölkənin ümumi milli mənafelərinə cavab verən istehsal sahələrinin dayanıqlı inkişaf durumunu təmin etməlidir. Bunun üçün isə qeyd edilən resurs potensialından tam və səmərəli istifadə olunması, bütün ehtiyatların səmərəli şəkildə dövriyyəyə cəlb olunması çox vacibdir.

Bu baxımdan respublikamızın iqtisadi inkişaf imkanlarını və iqtisadi təhlükəsizliyinin təmin olunması yollarını araşdırarakən hər şeydən əvvəl artıq yuxarıda qeyd etdiyimiz kimi belə bir xüsusi cəhət diqqəti cəlb edir ki, öz milli iqtisadiyyatının bütün həlledici sahələrinin istehsal potensialını yaratmaq üçün respublika

başqa dövlətlərdən asılı olmayan geniş təyinatlı təsərrüfat sisteminin təşəkkülü üçün ən zəruri sərvət növlərinə uzunmüddətli istifadəsi mümkün olan, xeyli zəngin ehtiyyatlara malikdir. Bu sərvətlərin səmərəli və məqsədli istifadə edilməsi ölkədə sahibkarlığın hərtərəfli və qarşılıqlı inkişafını təmin etmək əsasında Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bir sıra problemlərinin uğurlu həlli və iqtisadi təhlükəsizliyin təmin edilməsi imkanlarını xeyli genişləndirir. Digər tərəfdən ölkədə hələ SSRİ dövründə yaradılmış geniş və güclü istehsal infrastrukturu potensialı mövcuddur. Bu isə öz-özlüyündə bir tərəfdən iqtisadiyyatın vaxtı ilə inkişaf etmiş sahələrinin yeni tələblərə uyğun fəaliyyətini bərpa etməyə, digər tərəfdən isə onların bir qisminin istehsal təyinatını dəyişməklə respublikanın milli iqtisadiyyatının daha təkmil quruluşunun formalaşdırılmasına şərait yaradır. Bütün bunların operativ və planlı şəkildə həll edilməsi üçün, sənayenin ayrı-ayrı sahələrinin, xüsusilə emal sahələrinin inkişafı üçün konkret dövlət proqramlarının işlənib hazırlanması, daxili bazarda daha böyük tələbə malik məhsulların istehsalı, sənaye sektorunun regional inkişafının ciddi şəkildə dəstəklənməsi və s. zəruridir. Eyni zamanda, xarici bazarlara səmərəli çıxış, əlverişli investisiya mühitinin yaradılması, ayrı-ayrı regionların üstün olduğu sahələrin müəyyənləşdirilməsi və vəsait qoyuluşunda bu üstünlüklərin dəstəklənməsi və s. məqsədəuyğun olardı.

Məlumdur ki, investisiya cəlbediciliyinin və investisiya aktivliyinin yüksəldilməsi, vəsait qoyuluşlarının stimullaşdırılması, investisiyaların həcm və miqyasının genişləndirilməsi ölkədə həyata keçirilən büdcə və pul-kredit siyasətindən çox asılıdır. İlk növbədə, çox ciddi makroiqtisadi problem olan inflyasiyanın cilovlanması, məhz düzgün reallaşdırılan büdcə və pul-kredit siyasətindən asılıdır ki, bu da investisiya qoyuluşları baxımından çox mühüm əhəmiyyət kəsb edir. Məhz, qeyd edilən məsələlərə aydınlıq gətirilməsi, büdcə və pul-kredit siyasətinin ölkədə investisiya qoyuluşlarının stimullaşdırılması və vəsaitlərin iqtisadi təhlükəsizlik baxımından daha zəruri istiqamətlərə yönəldilməsinin təmin olunması baxımından, tədqiqat zamanı büdcə və pul kredit siyasəti araşdırılmış, bu istiqamətdə təkmilləşdirici addımların

atılması məqsədilə müvafiq təklif və tövsiyələr irəli sürülmüşdür. Eyni zamanda, iqtisadi təhlükəsizliyin təmin edilməsində investisiya qoyuluşlarının zəruriliyi nəzərə alınaraq, investisiya fəallığının yüksəldilməsi istiqamətləri də tədqiq olunmuşdur. Bu məqsədlə, investisiya mühiti, investisiya iqlimi, ehtimal edilən maliyyə riskləri və s. geniş şəkildə tədqiq edilmiş, elmi cəhətdən əsaslandırılmış nəticə və təkliflər işlənib hazırlanmışdır.

**Tədqiqat zamanı əldə edilən ən mühüm nəticələrdən bəziləri:**

- Müasir dövrün səciyyəvi xüsusiyyətlərindən biri də qlobal məkanda kapital və maliyyənin hərəkətinin sürətlənməsidir ki, bu da iqtisadi təhlükəsizlik baxımından müəyyən təhdidlər formalaşdırır;
- Müasir qloballaşma dövründə iqtisadi təhlükəsizliyin təmin edilməsi daha aktual problemə çevrilmişdir ki, buraya da iqtisadi sferada milli və dövlətçilik maraqlarının qorunması aid edilir;
- Milli pulun dəyərdən düşməsinin qarşısını almaqla, kreditlərin əlçatanlığının təmin olunması ilə yanaşı, həm də büdcə vəsaitlərinin, iqtisadi təhlükəsizlik baxımından, daha zəruri istiqamətlərə yönəldilməsi, eləcə də pul-kredit siyasətinin də mütəmadi olaraq, dövlətin və cəmiyyətin uzlaşdırılmış maraqlarına uyğun təkmilləşdirilməsi vacibdir;
- Təhdidlərdən asılı olmayaraq iqtisadi təhlükəsizliyin təmin edilməsi milli maraqların qorunması, müdafiə qabiliyyətinin formalaşması, vətəndaş cəmiyyəti və dövlət institutlarının normal fəaliyyətini nəzərdə tutur. Eyni zamanda, iqtisadi təhlükəsizliyə yalnız milli maraqların qorunması kimi deyil, həm də milli inkişafın təmin edilməsi kimi yanaşmaq daha məqsədəuyğundur;
- Müasir şəraitdə iqtisadi təhlükəsizliyin təmin edilməsinin mühüm maliyyə-investisiya mənbələrindən biri də başlıca funksiyası maliyyə vəsaitlərinin cəmlənməsi və zəruri istiqamətlərə yönəldilməsi olan qiymətli kağızlar bazarıdır. Ona görə də qiymətli kağızlarla investisiya qoyuluşlarının stimullaşdırılması, bazarın daha da inkişaf etdirilməsi istiqamətində müvafiq işlərin aparılması məqsədəuyğun olardı;
- Təcrübə göstərir ki, müasir dövrdə iqtisadi təhlükəsizlik üçün müəyyən təhdidlər özünü göstərə bilər ki, bunlardan biri də kapital və intellekt kimi strateji milli ehtiyyatların xaricə axmasıdır. Bu

halda ölkədən çıxan milli kapitalın yerini xarici kapital tutur ki, bu da iqtisadi təhlükəsizlik və müstəqillik baxımından əlverişli deyildir. Ona görə də strateji milli ehtiyatların qorunması və səmərəli istifadəsi istiqamətində müvafiq stimullaşdırıcı tədbirlərin görülməsi vacibdir;

- İqtisadi təhlükəsizliyin etibarlı təminatı baxımından ölkədə investisiya fəallığının yüksəldilməsi çox vacibdir. Bu baxımdan iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün investisiya fəallığının artırılması, cəlbediciliyin yüksəldilməsi, eləcə də vəsaitlərin optimal və səmərəli bölüşdürülməsi xüsusi əhəmiyyətə malikdir;
- Milli və dövlətçilik mənafeləri baxımından əlverişli maliyyə-investisiya siyasətinin formalaşdırılması, xarici iqtisadi fəaliyyətin səmərəli təşkili, investisiya vəsaitlərinin optimal bölüşdürülməsi, bu məqsədlə dövlətin stimullaşdırıcı və əlaqələndirici funksiyalarının daha təsirli hala gətirilməsi, dövlət və biznes strukturlarının, eləcə də vətəndaş cəmiyyətinin qarşılıqlı əlaqədar fəaliyyət mexanizminin yaradılması zəruridir;
- İqtisadi təhlükəsizliyin əsas təminatçılarından biri də milli iqtisadiyyatın rəqabət qabiliyyətlilik səviyyəsidir. Ona görə də, əsas diqqətin yüksək rəqabət qabiliyyətinə malik yeni müəssisələrin təşkilinə yönəldilməsi çox vacibdir.
- Qeyd olunduğu kimi, iqtisadi təhlükəsizlik investisiya qoyuluşlarından çox asılıdır ki, bu da, öz növbəsində, büdcə, maliyyə-kredit, vergi və s. siyasətdən asılıdır. Ona görə də investisiya cəlbediciliyinin yüksəldilməsi, həm də cəlb edilmiş vəsaitlərin optimal şəkildə bölüşdürlməsi məqsədilə büdcə, maliyyə-kredit, vergi, gömrük və s. istiqamətlərə kompleks şəkildə yanaşılması daha məqsədəuyğundur.

**Dissertasiya işinin əsas nəticələri müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

**1.** Ölkənin iqtisadi təhlükəsizliyini xarakterizə edən göstəricilər. AMEA, İqtisadiyyat İnstitutu, Elmi əsərlər, 2009, №4, səh. 41-45;
**2.** İqtisadi maraqlar iqtisadi və milli təhlükəsizliyin mühüm amili kimi. AKU, “Kooperasiya” jurnalı, 2012, №4(27), səh. 82-87;
**3.** Qloballaşma şəraitində iqtisadi təhlükəsizliyin səciyyəvi xü-

susiyyətləri. AMEA, İqtisadiyyat İnstitutu, Elmi əsərlər, 2012, №4, səh.22-27;

**4.** Qloballaşma şəraitində davamlı iqtsadi inkişaf və iqtisadi təhlükəsizlik. AMEA, İqtisadiyyat İnstitutu, "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa şatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri", Beynəlxalq konfransın materialları, səh. 258-259;

**5.** İqtisadi təhlükəsizliyin təmin edilməsində maliyyə-investisiya potensialının rolu. AU, "İpək Yolu" jurnalı, 2011, №2, səh. 55-60;

**6.** Büdcə və maliyyə-kredit siyasətinin təkmilləşdirilməsi iqtisadi təhlükəsizliyin mühüm amilidir. "Kooperasiya" jurnalı, AKU, 2012, №3(26), səh.71-77;

**7.** İnvestisiya fəallığının iqtisadi təhlükəsizliyə təsir istiqamətləri. AMEA, İqtisadiyyat İnstitutu, Elmi əsərlər, 2010, №4, səh. 378-385;

**8.** Maliyyə qloballaşmasının iqtisadi təhlükəsizliyə təsir istiqamətləri. "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya", III Beynəlxalq konfrans. "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya", III Beynəlxalq konfrans, Qafqaz Universiteti, 15-17 oktyabr 2010, səh.. 25-27;

**9.** Qiymətli kağızlar bazarının inkişafı mühüm maliyyə-investisiya mənbəyi kimi. BBU, Audit jurnali, № 1 (57), 2013, səh. 65 - 70.

**10.** Значение экономической безопасности и его роль в обеспечении национальной безопасности. Санкт-Петербург, «Глобальный научный потенциал», №2(23), 2013, стр.73-75;

**11.** Направления влияния инвестиций на экономическую безопасность в условиях глобализации. Москва, «Экономические науки», научно-информационный журнал, № 3 (100), 2013, стр. 174-178.

**Парвиз Агалар оглы Велиев**

# ФИНАНСОВО-ИНВЕСТИЦИОННЫЕ ИСТОЧНИКИ ОБЕСПЕЧЕНИЯ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

## Резюме

Диссертационная работа состоит из введения, трех глав, выводов и предложений, списка использованной литературы объемом 160 страниц. Во введении обосновывается актуальность темы, степень изученности проблемы, цель исследования, даются теоретико-методологические основы, информационная база и научная новизна.

В первой главе «Теоретико-методологические основы обеспечения экономической безопасности», автор проводит анализ и обобщает точки зрения меркантилистической, классической, монетаристской, кейнсианской и др. школ, а также отдельных ученых-экономистов. В этой главе также исследуются важность и содержание экономической безопасности в современных условиях, характерные черты безопасности в условиях глобализации.

Во второй главе диссертации «Анализ и оценка степени использования финансово-инвестиционных ресурсов в обеспечении экономической безопасности» проводится анализ современного состояния в Азербайджанской Республике, определены направления влияния финансово-инвестиционного потенциала на экономическую безопасность. Здесь исследованы направления развития рынка ценных бумаг, являющихся важным финансово-инвестиционным источником.

В третьей главе диссертации «Пути повышения влияния финансово-инвестиционных ресурсов на экономическую безопасность» исследованы вопросы обеспечения экономической безопасности Азербайджанской Республики, регулирования бюджетных и денежно-кредитных политик, повышения инвестиционной деятельности.

В конце диссертации даются выводы и предложения, полученные в результате исследования.

**Parviz Agalar Valiyev**

# FINANCIAL-INVESTMENT SOURCES OF SUPPLY OF ECONOMIC SAFETY

## Summary

Thesis consists of introduction, three chapters, conclusion, list of used literature with the volume of 160 pages. The introduction grounds the actuality of the topic, the level of the study, goals of the research, gives theoretical and methodological foundation and informational base, and scientific novelty.

The first chapter «The oreticalan-dmethodological foundations of economic safety supply», conducts the analysis of the point sofviewof different economics chool ssuchlike: merchantilistic, classic, monetary, keynesianistic, and also separate classic economic sindividuals. This chapter also researches the importance and contentof economic safetyinc urrentterms, characteristic features of the safety in the terms of globalization.

The second chapter "Analysis and valuation of the level of financial-investment sources usage in supply of economic safety" is taken an analysis of current terms. This chapter analysis the current terms in Azerbaijan, the impact directions of financial-investment potential on the economic safety are defined. In the third unit of the second chapter there were researched the development directions of the securities market that play an important financial-investment role.

The third chapter of the thesis "The ways of improvement of the impact of financial-investment sources on the economic safety" the issues of supply of economic safety in Azerbaijan, regulation of budget and monetary policies, advancement of investment activity were overviewed.

At the end of the thesis there were given conclusion that have been obtained during the research.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЭКОНОМИКИ**

*На правах рукописи*

**ПАРВИЗ АГАЛАР ОГЛЫ ВЕЛИЕВ**

# ФИНАНСОВО-ИНВЕСТИЦИОННЫЕ ИСТОЧНИКИ ОБЕСПЕЧЕНИЯ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

**Специальность:** 5307.01- Экономическая теория

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени
доктора философии по экономике

**Баку – 2014**

AMEA-nın mətbəəsində çap olunub
Tiraj-100